http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 21 (1596) 15 dekabr 2014 - cü il Qiyməti 40 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 11 il keçir.***

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.



Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov və digər rəsmi şəxslər iştirak ediblər.

### BU SAYIMIZDA





Azərbaycan Tibb Universitetində ulu öndərin anım günü qeyd olunub 2



ALİMİN NURLU XATİRƏSİ ANILDI 3

Türkiyəli alimlər ATU- da elmi-praktik seminar keçirmişlər 2

Rektor tələbələrlə görüşüb 4



Ürək-damar xəstəlikləri prosedurlarının tamamını bir arada edən mərkəz 5

Tələbə-Gənclər Təşkilatının seçki-hesabat konfransı olub 3

"Dünyada ağciyər nəqli" mövzusunda konfrans keçirilib 7

# Azərbaycan Tibb Universitetində ulu öndərin anım günü qeyd olunub

**Dekabrın 11-də Azərbaycan Tibb Universitetində xalqımızın ümummilli lideri Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirildi.**

Milli Məclisin üzvləri, universitetin professor-müəllim heyəti, ziyalılar və tələbələrin qatıldığı tədbirdə ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında əvəzsiz xidmətlərindən danışıldı.

Konfransı giriş sözü ilə açan ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov unudulmaz şəxsiyyət, dərin zəka sahibi Heydər Əliyevin Azərbaycan elminə və təhsilinə himayədarlıq etdiyini, bu sahədə çalışanlara, xüsusilə səhiyyə işçilərinə həmişə diqqət və qayğı göstərdiyini xatırlatdı. O, ölkəmizdə səhiyyənin inkişafı və tibb kadrlarının hazırlanmasının məhz ulu öndərin adı ilə bağlı olduğunu bildirdi: "Hər il Azərbaycanla yanaşı digər ölkələrdə də müasir Azərbaycanın yaradıcısı olan Heydər Əliyevin anım mərasimləri təşkil olunur. Tarixdən də bəllidir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin özünəməxsus yeri vardır. Ulu öndərin Azərbaycanın ərazi bütövlüyü uğrunda gördüyü işləri artıq bütün dünya etiraf edir".

Akademik Əhliman Əmiraslanov ulu öndərin Azərbaycan xalqının gələcək inkişafı üçün İlham Əliyev kimi müdrik şəxsiyyət yetişdirməsini də xüsusi vurğuladı: "Azərbaycan prezidenti Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kursu çox uğurla davam etdirir və bu mövqeyinə görə xalqımız həmişə onu dəstəkləyəcək.



Məhz bu uğurlar Prezident İlham Əliyevə xalqın sonsuz rəğbət və hörmətini qazandırıb. Dövlətimizin başçısının rəhbərliyi altında qazanılan nailiyyətlər bu gün də davam edir və xalqımızı xoşbəxt gələcəyə doğru aparır".

ATU-nun stomatoloji və onkoloji klinikalarının ümummilli liderimiz Heydər Əliyevin böyük qayğısı sayəsində yaradıldığını diqqətə çatdıran rektor qeyd etdi ki, onun layiqli davamçısı Prezident İlham Əliyevin dəstəyi ilə inşa olunmuş universitetin çoxprofilli terapevtik və cərrahiyyə klinikaları ən müasir avadanlıqla təchiz olunaraq əhaliyə dünya standartlarına uyğun səviyyədə tibbi xidmət göstərir.

Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət Həsənova Heydər Əliyevin adının Atatürklə yanaşı çəkildiyini deyərək bildirdi ki, bu gün dünyada 5000-ə yaxın dil, millət var. Onların arasında tanınmaq, fərqlənmək olduqca çətindir. Qlobal təhdidlərlə dolu olan bir dövrdə Azərbaycanın öz müstəqilliyini qoruyub saxlaması da çox çətin bir iş idi ki, bunun öhdəsindən ancaq Heydər Əliyev kimi dahi şəxsiyyət gələ bilərdi.



Akademik Adilə Namazova, ATU-nun elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev, əczaçılıq fakültəsinin dekanı, professor Tahir Süleymanov və III kurs tələbəsi, Prezident təqaüdçüsü Xatın Məmmədova da çıxış edərək Azərbaycan tarixində misilsiz xidmətlər göstərmiş ulu öndər Heydər Əliyev haqqında fikirlərini tədbir iştirakçıları ilə bölüşdülər, onun böyük dövlət xadimi, dünyanın nadir, seçilən siyasət adamı olduğunu vurğuladılar.

Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illəri Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış mühüm mərhələ kimi qiymətləndirdilər. Qeyd etdilər ki, ümummilli liderin Azərbaycan naminə gördüyü misilsiz işlər onu tarixdə və qədirbilən xalqımızın yaddaşında əbədi yaşadacaqdır.

Ulu öndər özünün ardıcıl və məqsədyönlü dövlətçilik siyasi fəaliyyəti ilə müstəqil Azərbaycan dövlətinin banisi, xilaskarı və qurucusu olmaqla bərabər, həm də XX əsrin dünya siyasətində silinməz izlər qoymuş tarixi şəxsiyyət kimi səciyyələndirildi.

**Arif MƏMMƏDLİ**
**Fotolar Cənnətalı Çingizindir**

# Türkiyəli alimlər ATU-da elmi-praktik seminar keçirmişlər

**Dekabrın 9-da Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikası və Türkiyənin "Klinik Biokimya Uzmanları" dərnəyi "Hipokrat" laboratoriyası ilə birgə "Laboratoriyaların akkreditasiyası və keyfiyyətə xarici nəzarət" mövzusunda elmi-praktik seminar keçirmişlər.**



Seminarı giriş nitqi ilə açan Tədris Terapevtik Klinikanın direktoru, professor Surxay Musayev qonaqları salamlayaraq universitet klinikalarının yaradılması, inkişafı və göstərilən dövlət qayğısı barədə ətraflı məlumat verdi. S.Musayev qeyd etdi ki, ulu öndər Heydər Əliyevin böyük siyasətini layiqincə davam etdirən cənab prezidentimiz İlham Əliyevin yaxından köməkliyi ilə yaradılan bu klinikalar qısa zaman ərzində dünyanın aparıcı klinikaları ilə birgə işgüzar əməkdaşlıq edirlər. Hazırda Tədris Terapevtik Klinika universitetimizin rektoru, akademik Əhliman Əmiraslanovun böyük təşkilatçılığı sayəsində beynəlxalq nüfuz qazanaraq dünyanın tanınmış 50 klinikası ilə yaxından əlaqə saxlayır. Klinikada aparılan müasir müalicə üsullarından və yeni yaradılan şöbələrin iş fəaliyyətindən bəhs edən klinika rəhbəri bildirdi ki, bizim hədəfimiz yaxın aylarda klinikada sümük iliynin köçürülməsini uğurla həyata keçirməkdir. Respublikamızın aparıcı laboratoriya mütəxəsislərinin də iştirak etdiyi seminarın işinə uğurlar diləyən S.Musayev laborator xidmətin klinikanın ən vacib sahələrindən biri olduğunu və bu baxımdan da burada ediləcək çıxışların faydalı olacağını söylədi.



Türkiyəli alimlər-"Klinik Biokimya Uzmanları" dərnəyinin başqanı, professor, doktor Necip İlhan və uzman, doktor Cüneyit Canbolat bu dərnəyin bir sıra dünya ölkələrində həyata keçirdiyi layihələrdən, iş prinsipləri və laboratoriyalarda aparılan işin keyfiyyətinə xarici nəzarət üsullarından və onların mühüm əhəmiyyətindən bəhs etdilər. Qonaqlar laboratoriya sahəsində çalışan mütəxəssislərə işlərini necə qurmaları üçün dəyərli məsləhətlər verdilər. Onlar bildirdilər ki, seminar təşkilatçıları Azərbaycan Səhiyyə Nazirliyi ilə birlikdə gələcəkdə də klinik laboratoriyaların əməkdaşları üçün belə tədbirlərin keçirilməsini davam etdirəcəklər.

Tədris Terapevtik Klinikanın baş həkimi Ramin Bayramlı və Türkiyədə fəaliyyət göstərən "Hipokrat" laboratoriyasının rəhbəri doktor Oktay Öztürk Klinik laboratoriyaların akkredittasiyasının əhəmiyyəti haqqında çıxış etmişlər.

Toplantının sonunda Türkiyəli alimlər yerli mütəxəsislərin onlara verdikləri sualları cavablandırmışlar.

**M.ƏLƏKBƏRLİ**

# Gənclər arasında tibbi maarifləndirməyə ehtiyac var

**Sağlam həyat tərzi insanların sağlamlığının qorunmasına və yaxşılaşmasına yönələn həyat fəaliyyəti üsuludur. Əməyin və istirahətin gigiyenası sağlam həyat tərzinə kömək edir, siqaret çəkmək, alkoqollu içkilər və narkotik kimi zərərli vərdişlər isə mane olur.**

"Sağlam ailə" Tibb Mərkəzinin sosial əlaqələr üzrə şöbə müdiri Nigar Rüstəmli AzərTAc-a eksklüziv müsahibəsində gənclər arasında tibbi maarifləndirmənin zəruri olduğunu bildirib. O deyib: "Mərkəz gəncləri elmin son nailiyyətləri barədə məlumatlandırmaq, sağlam həyat tərzini təbliğ etmək, habelə tibbi maarifləndirmə məqsədi ilə artıq 11 ildir vaxtaşırı konfranslar, forumlar təşkil edir. Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının və "Euromed" Tibb Mərkəzi ilə birlikdə keçirilən "Sağlam gənclər, sağlam gələcək" mövzusunda forum Gənclər və İdman Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri Dövlət Komitəsinin dəstəyi ilə təşkil olunub. Tədbirlər zamanı gənclərin məlumatlılıq səviyyəsinin zəif olduğu üzə çıxıb. Gənclərin məlumatsız olmasının səbəbi mentallıq faktorudur. Bu səbəbdən gənclər arasında tibbi müayinə mədəniyyətini inkişaf etdirmək üçün həmin tədbirləri sistemli şəkildə keçirmək zərurəti göz qabağındadır. Nikaha girən gənclər bir-birinin sağlamlığı barədə məlumatlı olmalıdırlar. Son statistik məlumatlar göstərib ki, Azərbaycan ailələrində boşanmaların çoxu sonsuzluq, talassemiya, genetik qan xəstəlikləri səbəbindən baş verir. Bu məsələ barəsində məlumatsızlıq mənfi nəticələrə (ağır infeksion xəstəliklərə yoluxma, xəstə uşağın doğulması və s.) gətirib çıxara bilər.

# ALİMİN NURLU XATİRƏSİ ANILDI

**Dekabrın 10-da Tədris Terapevtik Klinikanın iclas zalında xalqına ləyaqətlə xidmət etmiş istedadlı alim, bacarıqlı səhiyyə təşkilatçısı, tibb elmləri doktoru, professor Əzəm Təyyar oğlu Ağayevin 70 illiyinə həsr olunmuş elmi konfrans keçirildi.**







Konfransı açan universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov nurlu siması ilə yaddaşlarda qalmış alimin qısa, lakin mənalı və şərəfli həyat yolundan söhbət açdı. O, dedi ki, Əzəm müəllimin əmək fəaliyyəti çox gərgin və çətin olmuş, aspirantlıqdan assistent, dekan müavini, dekan və prorektorluğa qədər pillə-pillə ucalmış, bu illər ərzində çox böyük hörmət, nüfuz sahibi olmuşdur.

İki il onunla birlikdə çalışdığını qeyd edən rektor bildirdi ki, Əzəm müəllim xatirəmdə sonsuz qədər xeyirxah və alicənab bir insan kimi qalıb. Onun hansı vəzifələrdə çalışmasından asılı olmayaraq özünü son dərəcə işgüzar, məsuliyyətli və bacarıqlı təşkilatçı kimi göstərib, haqq-ədalət tərəfdarı olub, ən çətin problemləri tez bir zamanda ustalıqla həll edib.

Görkəmli alimin həyat və fəaliyyəti haqqında ictimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, professor Rafiq Çobanov geniş məruzə ilə çıxış etdi.

Mərhum alimin ömür yolundan söhbət açan natiq dedi ki, professor Əzəm Ağayev 1944-cü il iyulun 15-də ölkəmizin səfalı guşələrindən biri olan Yardımlıda, seyidlər ocağı kimi tanınan Pirimbel kəndində dünyaya göz açıb.

O, 1952-ci ildə kənddəki 7 illik məktəbin birinci sinfinə getmiş, lakin 1953-cü ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə Pirimbel kəndi sərhəd ərazisində yerləşdiyi üçün Salyan rayonunun Qızılağac kəndinə köçürülmüşdür. Əzəm Ağayev buradakı 7 illik məktəbdə təhsilini davam etdirmiş və 1962-ci ildə Salyan şəhərindəki 2 saylı orta məktəbi bitirmişdir.

1963-cü ildə N.Nərimanov adına ADTİ-nin (indiki ATU) müalicə-profilaktika fakültəsinə daxil olan Ə.Ağayev 1969-cu ildə institutu fərqlənmə diplomu ilə bitirir. O, Elmi Şuranın qərarı ilə sosial gigiyena və səhiyyənin təşkili kafedrasına baş laborant vəzifəsinə göndərilir və elə həmin il müsabiqə yolu ilə kafedranın aspiranturasına qəbul olur. 1972-ci ildə müvəffəqiyyətlə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi alır. 1972-76-cı illərdə sosial gigiyena və səhiyyənin təşkili kafedrasına assistent, 1976-80-ci illərdə baş müəllim, sonra dosent seçilir. 1993-cü ildə isə Moskva şəhərində doktorluq dissertasiyasını müdafiə edərək tibb elmləri doktoru adına layiq görülür.

Çıxışını davam edən məruzəçi bildirdi ki, Əzəm müəllim 1975-ci il-dən 1982-ci ilə kimi sanitariya-gigiyena fakültəsinin dekan müavini, 1982-85-ci illərdə isə bu fakültənin dekanı olmuşdur. Həmin illərdə onun təşkilatçılıq qabiliyyəti yüksək qiymətləndirilir və 1985-ci ildə institutun tədris işləri üzrə prorektoru vəzifəsinə təyin edilir.

Ə.Ağayev 1989-cu ildən ömrünün sonuna kimi-1994-cü ilin iyulunadək sosial gigiyena və səhiyyənin təşkili kafedrasına rəhbərlik etmişdir. İşlədiyi müddət ərzində onun əməyi yetərincə dəyərləndirilmişdir. O, 1984-cü ildə “ SSRİ səhiyyə əlaçısı” döş nişanı, SSRİ və Azərbaycan SSR-in səhiyyə nazirliklərinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Professor Ə.Ağayevin 60-dan artıq elmi əsəri respublikamızda sosial gigiyena və səhiyyənin təşkili elminin inkişafında mühüm yerlərdən birini tutur.

Sonra xatirə çıxışları oldu. Tədris Terapevtik Klinikanın direktoru, professor Surxay Musayev, K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, professor Nəsib Quliyev, tibbi profilaktika və tibbi biologiya fakültəsinin dekanı, dosent Aydın Məmmədov, epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, histologiya, sitologiya və embriologiya kafedrasının müdiri, professor Eldar Qasımov mərhum alimlə bağlı yadda qalan həzin, kövrək xatirələrini dilə gətirdilər, onun insani keyfiyyətlərindən, yaxın dostluq və mehriban qonşuluq münasibətlərindən ətraflı söhbət açdılar. Natiqlər vurğuladılar ki, o həm əxlaqi, həm də mənəvi dəyərlərə malik olduqca saf və təmiz bir insan idi. Əzəm müəllim xalq üçün çalışmağı özünün həyat amalı saymış, xeyirxahlığı, vətənpərvərliyi, alicənablığı ilə gənc nəslin elmə yiyələnib kamilləşməsində əlindən gələni əsirgəməmişdir. Məhz elə buna görədir ki, onun dünyasını dəyişməsindən 20 il keçməsinə baxmayaraq ləyaqətli insan, bacarıqlı pedaqoq, sədaqətli dost kimi indi də hörmətlə xatırlanır.

Sonra alimin oğlu, tibb elmləri namizədi Anar Ağayev atasının xatirə işığına toplaşan tədbir iştirakçılarına təşəkkür etdi. O, bu tədbirin təşkilinə görə başda akademik Əhliman Əmiraslanov olmaqla universitet rəhbərliyinə və bütün kollektivə ailələri adından öz minnətdarlığını bildirdi.

Konfransı yekunlaşdıran akademik Ə.Əmiraslanov qeyd etdi ki, Əzəm müəllim xeyirxahlıqları ilə onu tanıyanların qəlbində əbədi yer tutub. Vaxtsız ölüm onu aramızdan aparsa da, övladları üçün şərəfli ad qoyub gedib. Oğlu Anar hal-hazırda atasının yolunu uğurla davam etdirir. O, bir zamanlar Əzəm müəllimin başçılıq etdiyi kafedranın dosenti və stomatologiya fakültəsinin dekan müavinidir.

**MƏNSUR**

# Tələbə-Gənclər Təşkilatının seçki-hesabat konfransı olub

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatının seçki-hesabat konfransı baş tutub. ATU-nun tədris işləri üzrə prorektoru, ə.e.x., professor Sabir Əliyev açılış nitqi ilə tədbir iştirakçılarını salamlayıb və konfransın işinə uğurlar arzulayıb.**

Sonra konfransa sədrlik edən ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov universitetimizin həyatında tələbə-gənclərin rolunun və onların dövlət başçımızın yaratdığı şəraitdən bəhrələnərək yüksək ixtisaslı həkim adına yiyələnmələri üçün aktiv fəaliyyət göstərdiklərini vurğulayıb.

Gələn il ilk dəfə olaraq “Bakı 2015” Avropa oyunlarının keçiriləcəyini xatırladan C.Qsımov bu tədbirlərin ölkəmizin həyatında müstəsna əhəmiyyət kəsb edəcəyini deyib. O, tələbə-gənclərin fəaliyyətinin bu oyunların təşkilində xüsusi rol oynayacağını da nəzərə çatdırıb.

Daha sonra TGT-nın əvvəlki sədri Burxan Həsənov təşkilatın cari il ərzinə fəaliyyəti haqqında hesabat xarakterli çıxış edib. O, tələbələri TGT-nin bir illik fəaliyyəti, gördüyü işlər, reallaşdırılan layihələri haqqında məlumatlandırıb.





Hesabatın müzakirəsindən sonra ATU üzrə Tələbə-Gənclər Təşkilatının yeni heyəti seçilib. Təşkilatın yeni seçilmiş sədri Tural Əzizov TGT-nın gələcək planları haqqında məlumat verib.

Qeyd edək ki, tədbirdə ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elşad Novruzov, Nəsimi rayon Gənclər və İdman İdarəsinin rəis müavini Şahmar Tağıyev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının TGT-lərlə iş departamentinin direktoru Yeganə Əliyeva da iştirak ediblər.

Toplantının sonunda tədbir iştirakçıları Prezidentə müraciət qəbul edərək tələbə-gənclərə göstərdiyi diqqət və qayğıya görə dövlət başçısına təşəkkürlərini bildiriblər.

**Günel ASLANOVA**

***Dekabrın 2-də Azərbaycan Tibb Universitetinin rektoru,millət vəkili, akademik Əhliman Əmiraslanovun tələbələrlə görüşü keçirilib. Görüşün məqsədi tələbələrin fikirlərini dinləmək, onların üzləşdiyi hər hansı problemi öz dillərindən eşitmək və qaydasına qoymaqdan ibarət olub.***

# Rektor tələbələrlə görüşüb

Tədbirdə bütün fakültələrdən 500-ədək tələbə, prorektorlar, dekanlar, kafedra müdirləri və müəllimlər iştirak edib.



Giriş sözü ilə tədbiri açan rektor son illər yüksək ixtisaslı həkim kadrlarının hazırlanması üçün görülən işlərdən danışıb. Universitetdə neçə ildir imtahanların multimedia sistemi ilə aparıldığına və bu sistemə keçidin heç də asan olmadığına toxunub: "Hər il ənənəvi olaraq imtahan məqbul sessiyası ərəfəsində tələbələrlə görüşlər keçirilir. Bu görüşlərin səbəbi tələbələri dinləmək, onları narahat edən məsələləri özlərinin dilindən eşitmək və lazımi tədbirlər görməkdən ibarətdir.

Bilirsiniz ki, bu ilki imtahan məqbul sessiyamız əvvəlki illərdən bir qədər fərqli olacaq. Buna səbəb ölkəmizdə iyun ayında baş tutacaq Bakı I Avropa Oyunlarının keçirilməsidir. Nazirlər Kabineti və Təhsil Nazirliyinin müəyyən tövsiyəsi ilə ali məktəblərdə keçirilən imtahan sessiyasında korreksiya aparılıb və vaxtı azaldılıbdır. Ona görə bu imtahan sessiyası bir az gərgin keçəcək.

Universitetimizdə neçə ildir imtahan multimedia sistemi ilə aparılır. Bu sistemə keçid o qədər asan olmayıb və keçid ərəfəsində müəyyən problemlərlə üzləşmişik. Buna baxmayaraq biz iradəmizi ortaya qoya bildik və imtahanların keçirilməsində subyektiv amili aradan qaldırdıq. İmtahanlar hazırda komyuter vasitəsi ilə götürülür. Necə ki, universitetə daxil olanda siz test üsulu ilə imtahan vermisiniz, eyni üsulla da smestr imtahanlarını verəcəksiniz. Bu üsulla imtahanın verilməsi tələbələr tərəfindən müsbət qarşılanıb və bu səbəbdən biz bu imtahan formasını gələcəkdə də saxlayacağıq"-deyən rektor tələbələri maraqlandıran suallara ətraflı cavab verib.

Tələbələr əsasən bəzi dərsliklərin çatışmazlıqlarına, həcminin çoxluğuna, hazırlanan dərsliklərdən bəzilərinin dilinin anlaşılmaz olmasına, bü üzdən predmetləri asanlıqla qavraya bilməmələrinə toxunublar. Dünyada qəbul olunmuş xarici tibb ədəbiyyatlarının tərcümə olunmasına ehtiyac olduğunu bildiriblər.

Əhliman müəllim tələbələrin toxunduğu dərslik probleminin müəyyən hissəsinin son illər aradan qaldırıldığını bildirdi: "Dərslik problemi var, amma son illər bu problemin müəyyən hissəsi həll olunub. Yeni dərsliklər də hazırlanmalıdır. Çatışmayan dərsliklərlə bağlı kitab-



xana ilə əlaqə saxlayırıq. Kitabxananın verdiyi siyahı əsasında dərslikləri alacağıq ki, tələbələr bu problemlə üzləşməsinlər. Bu istiqamətdə işləyirik və indən sonra da bu məsələ diqqət mərkəzində olacaq. Bizim proqrama uyğun gəlməyən tərcümələrin də əleyhinəyəm. Bu istiqamədə də hazırda lazımi iş aparılır. Proqrama uyğunlaşdırmaq şərtilə bəzi tərcümələr aparılır. İstərdim ki, kafedralarda kitablar hazırlananda tələbələrin də rəyi nəzərə alınsın. Tələbələr tərəfindən verilən rəylər, təkliflər kafedra müdirləri tərəfindən toplanaraq metodik şuraya təqdim olunsun və müzakirə ediləndən sonra razılığa gəlinərsə, qəbul olunsun."

Tələbələr praktik biliklərini artırmaq üçün bəzən klinikalarda müəyyən problemlə üzləşdiklərini də rektorun diqqətinə çatdırdılar. Rektor məsələnin araşdırılmasını və bu cür neqativ halların aradan qaldırılması üçün elə yerindəcə lazımi göstəriş verdi.

Akademik bildirdi ki, tədris terapevtik, tədris cərrahiyyə klinikalarında təcrübi vərdişlərə yiyələnmək üçün təşkil olunmuş treyninq mərkəzləri tələbələrin istifadəsindədir. Çalışmaq lazımdır ki, tələbələrimizə bu imkanlardan lazımi şəkildə yararlanmalarına şərait yaradılsın.

Tələbələrdən bəziləri isə tədris saatlarının çox, sərbəst iş saatlarının azlığından da söhbət açdılar.

Bu məsələyə də münasibət bildirən rektor qeyd etdi ki, Avropa və Amerikanın təhsil sistemində tədris saatları bizə nisbətən azdır. Orada sərbəst işləmək saatları üstünlük təşkil edir. İstəyirik ki, gələcəkdə biz də tələbələrin sərbəst işləmək saatlarını artıraq.

Görüş zamanı ATU-nun Tədris-terapevtik klinikasının direktoru, professor Surxay Musayev, elmi işlər üzrə prorektor, professor İbrahim İsayev , tədris hissəsinin müdiri, dosent Nəsimi Qasımov, insan anatomiyası kafedrasının müdiri, professor Vaqif Şadliski çıxış etdilər, tələbələrin sullarını cavablandırdılar.

Vaqif Şadlinski bu il imtahan sessiyasının Bakı I Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar gərgin keçəcəyini vurğulasa da, bu oyunların paytaxtımızda keçirilməsindən qürur duyduğunu bildirdi. "Bir halda ki, bu oyunların Azərbaycanda keçirilməsinə etibar ediblərsə, bu o deməkdir ki, ölkəmizin nüfuzunun dünya miqyasında artıb. Ona görə hər birimiz çalışmalıyıq ki, bu oyunlar yüksək səviyyədə keçsin.

Sonda tələbələr rektora onlarla görüşə vaxt ayırdığına görə təşəkkürlərini bildirib və universitetdə tələbələrin yüksək biliklərə yiyələnməsi üçün yaradılan şəraitdən razı qaldıqlarını qeyd ediblər.

**Qabil ABDULLAYEV**

**Dekabrın 5-də Sudanın Azərbaycandakı səfiri Məhəmməd Aliya's və Fələstin səfirliyinin nümayəndəsi Hussam Lotfi Tibb Universitetinin qonağı olub. Qonaqlar ATU-nun xarici tələbələrlə iş üzrə dekanı Gülər Seyidova ilə görüşüblər.**

# Sudanın və Fələstinin Azərbaycandakı səfirləri ATU-nun qonağı oldular



Görüş zamanı ATU-nun Sudan və Fələstindən olan tələbələrinin təhsili, burada onlar üçün yaradılan şəraitdən söz açılıb. Qeyd olunub ki, bu tələbələrin daha rahat şəraitdə təhsilinin təşkili üçün səfirliklərlə daim əlaqələr yaradılacaq.

Gülər Seyidova hər il universitetə 1000-ə yaxın tələbənin qəbul olduğunu qonaqların diqqətinə çatdırıb. Onun sözlərinə görə, hazırda universitetin 7000-dən çox tələbəsi var və onlardan təxminən 1100 nəfəri əcnəbilərdir. Ümumilikdə ATU-da 18 ölkənin vətəndaşları təhsil alır.

Görüş zamanı qonaqlara Tibb Universitetinin fəaliyyəti, klinikalar barədə məlumat verilib. Qeyd olunub ki, ATU nəzdindəki klinikalar əhaliyə yüksək tibbi xidmət verməklə yanaşı, həm də tədris müəssisəsi kimi fəaliyyətdədir.

# ERASMUS MUNDUS layihələri üzrə informasiya günü keçirilib

**◆ Dekabrın 3-də Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasında Avropa Şurasının ERASMUS MUNDUS proqramının layihələri üzrə informasiya günü keçirilib.**



Tədbirin əvvəlində ATU-nun beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Rəhimə Qabulova çıxış edib. O, proqramın əhəmiyyətindən söz açaraq bu layihələrin tələbələr üçün yaratdığı imkanlardan danışıb. R.Qabulova ATU-nun iştirakçı olduğu MEDEA layihəsi, bu layihə çərçivəsində görülən işlər haqda da ətraflı məlumat verib.

Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı İlham Abbasov təmsil etdiyi ali təhsil müəssisəsinin iştirakçısı olduğu BAKİS, ALRAKİS, HERMES və EMBER layihələri haqqında fikirlərini bölüşüb.

Çıxışlarda qeyd olunub ki, ERASMUS MUNDUS proqramı tələbə, müəllim, magistr və doktorantların mübadiləsi məqsədilə yaradılıb. Qonaqlar Azərbaycan universitetlərinin Avropa təhsil sisteminə inteqrasiya prosesində bu proqramın xüsusi rol oynadığını vurğulayıblar.

Xatırladaq ki, ERASMUS MUNDUS proqramı çərçivəsində indiyə qədər icra olunan layihələr arasında MEDEA tibb sahəsinə aid yeganə layihədir. Hazırda ATU-nun 1 tələbəsi və 1 rezidenti bu layihənin dəstəyi ilə Almaniyanın Şarite və Birləşmiş Krallığın Kardif universitetlərində təhsillərini davam etdirir.

**ATU-nun mətbuat xidməti**

# Ürək-damar xəstəlikləri prosedurlarının tamamını bir arada edən mərkəz

**Dekabrın 4-də ATU-nun Tədris Terapevtik Klinikasının tibbi şurasının növbəti yığıncağı keçirilib. Klinikanın direktoru, professor Surxay Musayev yığıncağı açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırıb və universitetin rektoru, akademik Əhliman Əmiraslanovun tələbələrlə görüşünün yekunu barədə məlumat verib.**

Bildirib ki, kafedra müdirlərinin də iştirak etdiyi görüşdə ciddi məsələlərə toxunulub: "Bütün istehsalat müşavirələri başa çatandan sonra hörmətli rektorumuz tələbələrlə görüşməyin zəruriliyini önə çəkərək tələbələrin problemləri ilə yaxından maraqlanmağı tövsiyə etdi. Deyim ki, 500 nəfərlik zala toplanan tələbələr rektorun, dekanların və kafedra müdirlərinin qarşısında öz təkliflərini verdilər, dərslikdən tutmuş dərslərin keçirilməsinə qədər bir çox məsələlərə tənqidi münasibətlərini bildirdilər. Xüsusilə, dərsliklərin böyük həcmli yazılmasından şikayətlənən tələbələr bəzi müəllimlərin apardıqları dərslərin keyfiyyətindən də narazıdırlar".

S.Musayev rektorla görüşdə tələbələrin səsləndirdiyi məsələləri daim gündəmdə saxlamağın, şikayət və təkliflərin dərhal həllinə nail olmağın vacibliyini vurğulayıb.

Yığıncaqda klinikanın aylıq fəaliyyətinin yekunları haqqında klinikanın baş həkimi, dosent Ramin Bayramlının hesabatı da dinlənilib. Baş həkim əsas diqqəti 2013-cü illə müqayisədə qazanılan uğurlara yönəldib. O, hesabatını əsasən statistik rəqəmlər üzərində quraraq paralellər aparıb, göstəricilərin nəzərə çarpacaq dərəcədə yüksəldiyini slaydlar vasitəsilə nümayiş etdirib. Hesabatda qeyd olunub ki, bu ilin noyabr ayı ərzində klinikaya 566 nəfər daxil olub, 533 nəfər isə çıxıb. Ən çox xəstə terapiya (249 nəfər daxil olub, 261 nəfər çıxıb), pediatriya (104 nəfər daxil olub, 106 nəfər çıxıb) yönümlü şöbələrdə və endokrinologiya bölməsində (71 nəfər daxil olub, 49 nəfər çıxıb) qeydə alınıb. Bu il klinikaya daxil olan xəstələrin sayı 2012-ci illə müqayisədə 37,5 %, 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə isə 19,3 % artıb. Hesabatda klinikanın bölmələri üzrə daxil olan xəstələr, onların xəstəliklərinin profilləri barədə də ətraflı məlumat yer alıb.



Bundan sonra klinikanın Ürək-Damar Mərkəzinin rəhbəri Fərid Əliyev mərkəzin bir illik fəaliyyəti haqqında yığıncaq iştirakçılarını məlumatlandıraraq yeniliklər, əldə edilən uğurlar, elmi nailiyyətlər və gələcək planlar barədə danışıb. Ümumilikdə bu bir il ərzində mərkəzdə 1500-ə yaxın xəstəyə tibbi xidmət göstərildiyini deyib: "Bir il ərzində mərkəzdə xeyli sayda xəstə stasionar şəraitdə müalicə olunub. Xəstələrə transtorakal və tranezofaqeal exokardioqrafiya, EKQ müayinə tətbiq edilib. Bu müddətdə 29 nəfərdə ürəkdaxili defibrilyator, 1 nəfərdə anadangəlmə ürəkdaxili qüsurların qapalı yolla bağlanması əməliyyatı həyata keçirilib. Gələcəkdə mərkəzdə kardioreanimasiya şöbəsinin qurulması, üçölçülü exokardioqrafiyanın aparılması, üçölçülü xəritələmə sisteminin tətbiqi və digər yeniliklər nəzərdə tutulur".

O, kardioloji stasionarın qurulması və lazımi avadanlıqlarla təciz edilməsini müsbət hal kimi dəyərləndirərək angioqrafiya bölməsinin yenidən qurulması, elektrofiziologiya bölməsinin və poliklinika şöbəsinin daha funksional və təchizatlı duruma gətirilməsi barədə də toplantı iştirakçılarına ətraflı bilgi verib. Eyni zamanda xəstə təqiblərinin yaxşılaşdırılması, xəstə məmnuniyyət formalarının hazırlanıb xəstələrin istəklərinin nəzərə alınması və bölüm daxili nəzəri və praktiki tədrisin yaxşılaşdırılmasından söhbət açıb. Bildirib ki, həkim-rezidentlərin və tələbələrin təcrübi vərdişlərə yiyələnməsi üçün də şərait yaradılıb. Sevindirici haldır ki, həkim-rezidentlər artıq bir çox prosedurları sərbəst şəkildə icra edə bilirlər.

Mərkəzdə koronar angioqrafiya, koronar angioplastika və stent implantasiyası, periferik angioqrafiya, müvəqqəti kardiostimulyator implantasiyası, bir və iki boşluqlu kardiostimulyatorların yerləşdirilməsindən bəhs edən F.Əliyev periferik angioplastika və stent implantasiyasının da uğurla həyata keçirildiyini vurğulayıb.



Onu da qeyd edib ki, ATU-nun Ürək-Damar Mərkəzi Avropa Kardiologiya Cəmiyyəti ilə sıx əməkdaşlıq qurmağı bacarıb. Mərkəz bu beynəlxalq şəbəkənin həm təhsil komitəsi, həm də rəhbər tövsiyə komitəsinə üzv qəbul edilib. Mərkəz əməkdaşlarının məqalələri beynəlxalq və yerli jurnallarda dərc olunub.

Doktor-uzmanlar Elnur İsayev, Fuad Səmədovun yüksək peşəkarlıqlarına güvəndiklərini deyən mərkəzin rəhbəri rezidentlərin və digər tibbi personalın da fəaliyyətindən razı qaldığını söyləyərək bildirib ki, ATU-nun Tədris Terapevtik Klinikasının Ürək Damar Mərkəzi ölkəmizdə ürək-damar xəstəlikləri prosedurlarının tamamını bir arada edən yeganə mərkəzdir.

Klinikanın vaksinasiya xidməti barədə isə Mədinə Hacıyeva məlumat verib.

Tibbi şuranın yığıncağında bəzi həkimlər tərəfindən ambulator qəbul kartlarının vaxtında işlənməməsi barədə iradlar da səslənib.

**A.KAMRANOĞLU**

# CANLI YAYINDA KONSİLİUM TƏŞKİL OLUNUR

**ATU-nun Tədris Terapevdik Klinikasında hematologiya şöbəsi və Türkiyə İstanbul "Florence Nightingale" Xəstəxanası Hematologiya və Sümük iliyi Transplantasiyası Mərkəzi arasında həftəlik telekörpü vasitəsi ilə canlı yayında konsilium təşkil olunur.**



Bu barədə qəzetimizə şöbənin müdiri Valeh Hüseynov məlumat verib: "Konsilium Türkiyədəki mərkəzin hematologiya şöbəsinin rəhbəri, professor Mutlu Arat və Tədris Terapevdik Klinikanın hematologiya şöbəsinin həkimləri tərəfindən aparılır. Konsilium zamanı hər iki mərkəzdə həftəlik müraciət edən və stasionarda müalicə alan xəstələrin müayinə və müalicə nəticələri müzakirə olunur. Beləliklə, xəstələrə ən müasir səviyyədə və standartlara uyğun müayinə və müalicə taktikası seçilir.



Gələcəkdə bu tipli konsiliumların daha geniş tərkibdə, patoloq və morfoloqların da iştirakı ilə aparılması planlaşdırılır ki, bu da universitetimizdə fəaliyyət göstərən hematologiya və yaxın zamanda açılması planlaşdırılan sümük iliyi transplantasiyası şöbələrinin inkişafına ciddi təkan verəcəkdir."

**"TƏBİB"**

# “İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında” Qanunun monitorinqi aparılıb

**Dekabrın 4-də Milli Məclisin sosial siyasət komitəsinin, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (ARGTMŞ), BMT-nin Uşaq Fondunun (UNICEF) birgə təşkilatçılığı ilə “İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun monitorinqinə dair dinləmələr keçirilib.**

AzərTAc xəbər verir ki, monitorinqi Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası apararaq təkliflər hazırlayıb.

Komitənin sədri Hadı Rəcəbli çıxış edərək bildirib ki, monitorinqin məqsədi qanunların bugünkü reallıqlara uyğunluğunu müəyyənləşdirmək, onların daha da təkmilləşdirilməsi üçün əlavə və dəyişikliklər etməkdir. Bu qanun 2010-cu il iyunun 18-də Vyanada 25 min insanın qatıldığı böyük bir tədbirin müzakirəsinə çıxarılıb və model qanun kimi bəyənilib. Zamanın tələbi olaraq bu qanun yenə də təkmilləşdiriləcək.

Milli Məclis sədrinin müavini Bahar Muradova bildirib ki, parlamentin fəaliyyətinin əsas istiqamətlərindən biri də vətəndaş cəmiyyəti institutları ilə sıx işləməkdir. Qanun yaradıcılığı prosesində həm onun şərh olunmasında, həm də monitorinqində birgə əməkdaşlıq əsas yer tutur.



Bahar Muradova qeyd edib ki, insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəlik dünyanın bir nömrəli problemlərindən biridir. Buna qarşı bütün cəmiyyət mübarizə aparmalıdır. Bu xəstəliklə mübarizədə ciddi maarifləndirmə işləri də görülməlidir. Vətəndaş cəmiyyətinin daha geniş cəlb olunması bu mübarizədə xüsusi rol oynayır. Milli Məclis sədrinin müavini müzakirələr zamanı səslənən fikirlərin problemin həllində faydalı olacağını söyləyib.

BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Andro Şilakadze bu məsələdə xüsusilə gənclər arasında maarifləndirmə işinin genişləndirilməsini təklif edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva qurumun bu istiqamətdə apardığı müvafiq işlərdən, reallaşdırılan tədbirlərdən danışıb.

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Şahin Seyidzadə aparılan monitorinq barədə məlumat verib.

Müzakirələrdə bildirilib ki, 113 ictimai birlik və təşkilatı özündə birləşdirən ARGTMŞ qanunun monitorinqini aparıb təkliflər hazırlayarkən müxtəlif qurumlarla görüşlər keçirib, onların rəylərini alıb. İki il aparılan monitorinqin nəticələrinə görə mövcud qanun yüksək səviyyədə hazırlanıb. Yalnız bir maddəyə dəyişiklik edilməsi təklif olunub. Bu da yetkinlik yaşına çatmayan şəxslərin valideynlərinin və ya hüquqi qəyyumların iştirakı olmadan tibbi müayinədən keçməyə qadağa qoyulması ilə bağlı yaş həddinin 18-dən 16-ya endirilməsinə dair təklifdir.

Hadı Rəcəbli təklif olunan dəyişikliyin işçi qrupda baxılıb müzakirə ediləcəyini diqqətə çatdırıb.

# Azərbaycanlı hərbi həkimlər dünyada ilk dəfə nadir əməliyyat keçiriblər

**Bakıda Silahlı Qüvvələrin Baş Klinik Hospitalında həkimlər dünyada ilk nadir əməliyyat keçiriblər.**




AzərTAc xəbər verir ki, bu barədə Baş Klinik Hospitalın Ürək-Damar Mərkəzinin rəisi, həkim-mütəxəssis Anar Əmrah dekabrın 4-də keçirdiyi mətbuat konfransında məlumat verib.

Anar Əmrah bildirib ki, kəskin miokard infarktı ilə bu il noyabrın 15-də müraciət etmiş 51 yaşlı Şahin Qurbanov təcili angioqrafiya nəticəsində ektazik - yəni genişlənmiş tac ana damarın tamamən trombla tutulması aşkar edilib. Xəstəyə ənənəvi metodlarla balon müdaxiləsi və trombolitik damarların tətbiqinə baxmayaraq nəticə əldə olunmadı. Xəstənin damarının genişliyi normadan 6 dəfə artıq idi. Böyük damarlardakı trombu əritmək üçün tətbiq edilən kateterlə gücləndirilmiş ultrasəs dalğaları ilə trombolizis bu xəstəyə uyğun olduğu üçün dünyada ilk dəfə tac arteriyasına tətbiq etdik və uğurlu nəticə əldə etdik. On iki saatlıq müalicədən sonra damarlara təkrar angioqrafiya ilə baxıldı və tromb ilə tutulmuş damarların tamamilə açılması göründü. Klinik olaraq xəstədə sürətli yaxşılaşma müşahidə edildi və kafi vəziyyətdə evinə yazıldı. Çox sevindirici haldır ki, bu uğurlu nəticəyə dünyada ilk dəfə azərbaycanlı hərbi həkimlər nail oldular.

Anar Əmrah deyib ki, Azərbaycanda ilk dəfə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Ürək-Damar Mərkəzində noyabrın 8-də həyata keçirilən digər bir əməliyyat 73 yaşlı xəstə üzərində aparılıb. Aorta qapağının darlığı ilə ürəyinin atım fraksiyası 25 faiz olan xəstədə anesteziya verilmədən bud arteriyasından girilərək kateter ilə döş qəfəsi açılmadan aorta qapağının yerləşdirilməsi həyata keçirildi. Aparılan uğurlu əməliyyatdan sonra xəstə kafi vəziyyətdə evə yazıldı.

Həkim-mütəxəssis deyib: “Bu gün əminliklə deyə bilərik ki, Silahlı Qüvvələrin Baş Klinik Hospitalı tibbi təminatı və kadrları ilə xəstələrə və yaralılara ən yüksək səviyyədə tibbi yardım göstərmək iqtidarındadır. Bizə bu imkanları yaratdığına görə Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevə və müdafiə nazirinə dərin minnətdarlığımızı bildiririk”.

Əməliyyatdan sonra özünü yaxşı hiss etdiyini söyləyən xəstə Şahin Qurbanov Azərbaycanda səhiyyənin inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına təşəkkürünü bildirib.

# Dünyanın 15-dən çox ölkəsinin tanınmış kardioloqları Bakıda azərbaycanlı həmkarları ilə müzakirələr aparırlar

**Dekabrın 6-da Bakıda Azərbaycan Kardiologiya Cəmiyyətinin III milli konqresi öz işinə başlayıb.**



AzərTAc xəbər verir ki, konqresin işində Azərbaycanın müxtəlif bölgələrindən 1500-dən artıq tibb işçisi, o cümlədən dünyanın 15-dən çox ölkəsinin tanınmış kardioloq və kardiocərrahları iştirak edirlər.

Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri Firdovsi İbrahimov diqqətə çatdırıb ki, belə mühüm tədbirlərin ölkəmizdə reallaşması ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu səhiyyə siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin məntiqi nəticəsidir.



Respublikamızda kardiologiya və ürək-damar cərrahiyyəsinin məhz ümummilli liderimizin şəxsi təşəbbüsü əsasında sürətli inkişaf yoluna qədəm qoyduğunu deyən F. İbrahimov məlumat verib ki, konqresdə yerli mütəxəssislərin 75, xarici kardioloqların isə 25 məruzəsi dinləniləcəkdir.

Artıq paralel olaraq dörd zalda kardiologiyanın müxtəlif problemlərinə dair müzakirələr gedir. Məqsəd Azərbaycanda kardiologiyanın və ürək-damar cərrahiyyəsinin inkişafına töhfə vermək, əcnəbi mütəxəssislərlə birgə fikir mübadiləsi aparmaq və tibb elminin bu sahədəki son yeniliklərini müzakirə etməkdir.

Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri onu da qeyd edib ki, hazırda dünyada ölüm hallarının 50 faizdən çoxu ürək-damar xəstəlikləri ilə əlaqədardır. Buna görə ölkəmizdə kardiologiya sahəsinə xüsusi diqqət yetirilir. Artıq ürək-damar xəstəliyindən dünyasını dəyişən insanların sayı azalmaqdadır. Azərbaycanda səhiyyənin bu sahəsində çox böyük inkişaf müşahidə olunur. Xarici mütəxəssislərlə də tez-tez müzakirələr apararaq bu sahənin daha da inkişaf etdirilməsinə çalışırıq. Konqresdə kardiologiya və ürək cərrahiyyəsindəki ən mübahisəli problemlərə də toxunulacaqdır.

Konqres öz işini dekabrın 7-də yekunlaşdırıb.

# “Dünyada ağciyər nəqli” mövzusunda konfrans keçirilib

## Professorlar Adnan Sayar və Çərkəz Cəfərovun çıxışları dinlənildi



**Dekabrın 11-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında “Dünyada ağciyər nəqli” mövzusunda konfrans keçirilib.**

Konfransda döş qəfəsi cərrahiyyəsi və ağciyər transplantasiyası üzrə tanınmış mütəxəssis, professor Adnan Sayar da dəvət olunub. ATU-nun müəllim və tələbə heyətinin iştirak etdiyi bu toplantını giriş sözü ilə klinikanının drektoru, dosent Hacıqulu Bağırov açıb. Toplantıda ATU-nun ümumi cərrahiyyə kafedrasının müdiri, professor Çərkəz Cəfərov və türkiyəli professor Adnan Sayar məruzə ilə çıxış ediblər.



O, son iki ildə ağ ciyər xərçəngindən əziyyət çəkən 23 xəstəsinin olduğunu bildirib. Hazırda Türkiyədə 6 tibb müəssisəsində ağ ciyər köçürülməsi üzrə əməliyyatlar aparıldığını və ilk belə əməliyyatın 2009-ci ildə baş tutduğunu qeyd edib.

Professor Tədris Cərrahiyyə Klinikasında yaradılan şəraiti yüksək qiymətləndirərək, gələcəkdə bu klinikada ağciyər köçürülməsi əməliyyatlarının həyata keçirilməsi üçün əməkdaşlığa hazır olduqlarını bildirib.

Sonra ümumi cərrahlıq kafedrasının müdiri, professor Çərkəz Cəfərov “Traxeya və baş bronxlarda aparılan reokonstruktiv bərpa əməliyyatları” mövzusunda çıxış etdi. Professor 25 il ərzində traxeya və baş bronxların iltihab mənşəli daralmaların travmatik zədələmələri və şişləri ilə ilə bağlı 92 xəstənin müalicə və müayinə olunduğunu bildirdi. Bu xəstələrdən 70-nin iltihab mənşəli daralmalar olduğunu qeyd etdi və apardığı cərrahi əməliyyatlar və nəticələrindən söhbət açdı.

Toplantı zamanı verilən suallara Adnan Sayar və Çərkəz Cəfərov ətraflı cavab verdilər.

**QABİL**

# Hərbi Tibb Fakültəsində “Ebola” virusu ilə bağlı elmi konfrans keçirilib




**Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində “Ebola virusu - bəşər tarixinin ən qəddar virus xəstəliyi” mövzusunda elmi konfrans keçirilib.**

Fakültənin müəllim, rezident və tələbə heyətinin iştirakı ilə keçirilən konfransı Silahlı Qüvvələrin baş cərrahı, tibb xidməti polkovniki Famil Babayev açaraq məruzə olunacaq məsələlərin aktuallığı barədə məlumat verib.

O, “Ebola” virusu, xəstəliyin yayılma coğrafiyası, onun yaratdığı problemlər və bu virusun Azərbaycanda yayılmasının qarşısını almaq məqsədilə profilaktik tədbirlərin keçirilməsi haqda məruzə ilə çıxış edib.

Sonra Silahlı Qüvvələrin baş infeksionisti, tibb xidməti polkovniki Azər Nağıyevin “Virus mənşəli hemorragik qızdırmalar”, tibb xidməti polkovnik-leytenantı Azad Məmmədovun “Ebola virusu tərəfindən törədilən xəstəlik” və tibb xidməti polkovnik-leytenantı Fərhad Meybəliyevin “Kontagioz hemorragik qızdırmalarda əks-epidemik tədbirlər” mövzusunda məruzələri dinlənilib.

**Fərid ƏDALƏT**

# Uşaqlarda suprakondilyar sınıqlar

**◆ Bu sınıqlar barədə ilk məlumatlar Hippokrata məxsusdur. Suprakondilyar humerus sınıqları 5-10 yaş arası uşaqlarda dirsək sınıqlarının 70%-ni təşkil edir. Bu sınıqlar daha çox açıq əl üzərinə və dirsək üzərinə yıxılma nəticəsində baş verir.**

Ümumiyyətlə, dirsək oynağı 3 sümükdən (humerus, ulna, radius) təşkil olunmuşdur. Oynaq kompleks hərəkətə malikdir. Dirsək oynağı radiohumeral hissəsində pronatsio-supinatsio, ulnahumeral hissəsində isə fleksiya və ekstensiya hərəkətləri baş verir. Suprakondilyar sınıqlar bükmə və açma, 98% halda isə açma tərzində olur.



Uşaq yaşlarında sümükləşmə vəziyyəti və sümükləşmə nöqtələrinin fərqliliyini nəzərə alsaq dirsək oynağında bir neçə sümükləşmə nöqtələri vardır. Bunlar kapitulum (2 yaş), radius başı (3 yaş), medial kondilus (5 yaş), troxlea (7 yaş), olekranon (9 yaş) və lateral kondilus (13 yaş) olaraq müəyyən edilmişdir.



Suprakondilyar sınıqlar əsasən 1959-cu ildə irəli sürülmüş Gartland təsnifatına əsasən sinifləndirilir.

Suprakondilyar sınıqların baş vermə mexanizminə gəldikdə, bu sınıqlar 98% hallarda açıq əl üzərinə yıxılma nəticəsində baş verir. Bu zaman fleksor qrup əzələlər tamamilə boşaldığı üçün dirsək oynağı sümüklərinə mexaniki dəstək verə bilmir. Həmçinin 3-10 yaş arası uşaqlarda bazu sümüyünün metafizi həmin bölgədə keçici zəif olur.



Type I

Suprakondilyar sınıqların diaqnozunda əsas göstərici dəqiq fizikal müayinədən başlayır. Dirsək bölgəsi şişkin, deformasiyalı görünür. Xəstələrin üzündə kəskin ağrı ifadəsi diqqəti cəlb edir. Bu patologiyalar zamanı nevroloji müayinə çox önəmlidir. Bölgədən keçən hər üç periferik sinir müayinə olunmalıdır və daha sonra radial arteriyanın pulsasiyası yoxlanılmalıdır. R-qrafiya zamanı həm ön, həm də yan proyeksiyalar önəmlidir. Yan proyeksiyada diqqıt edilməli əsas göstərici ondan ibarətdir ki, normal halda bazunun ön korteksindən keçən xəyali xətt kapitulumla kəsişməlidir. Ön proyeksiyada isə Bauman bucağına diqqət edirik. Bu bucaq lateral epifizial xəttlə bazunun cisminə paralel göndərilmiş xətt arasındakı bucaqdır (Norma 85-89 dərəcə).

Suprakondilyar sınıqların müalicəsinə gəldikdə Tip 1 və Tip 2 sınıqlar konservativ müalicə edilməlidir. Bu zaman qol, bazunun orta 1/3 hissəsinə qədər sirkulyar gips langeti ilə immobilizasiya edilməlidir.




Langetin saxlanılma müddəti 3 həftədən az olmamalıdır. Langet goyulduqdan sonra mütləq biləkdə pulsasiyanın olub-olmaması kontrol edilməlidir. Bu, ətrafda qan dolaşımını təmin etmək üçün önəmlidir. Tip 3 sınıqlar isə mütləq cərrahi müdaxilə gərəkdirən bir durumdur. Cərrahi müdaxilə zamanı Kişner telləri ilə fiksasiyaya üstünlük verilir. Epifizar zonadan maksimum 3 ədəd tel keçirilmək şərti ilə cərrahın seçiminə görə ya lateral,



ya da çarpaz pinləmə istifadə olunur. Çarpaz pinləmə texniki olaraq çətin olsa da, stabilizasiya baxımından mexaniki etibarlılığı daha yüksəkdir.




Şekil-2 Radyolojik değerlendirme

Nəzərinizə çatdırmaq istəyirik ki, 2014-cü ilin birinci yarısında ATU-nun Tədris Cərrahiyyə Klinikasında 6 Tip 3 suprakondilyar sınıq əməliyyatı etmişik. Xəstələrin orta yaş qrupu 4-10 arası dəyişirdi və hamısı oğlan uşaqları idi. Bütün xəstələrdə cərrahi açıq fiksasiya 2 ədəd Kişner teli vasitəsilə aparıldı və ətraf gips langeti ilə ən azı 4 həftə immobilizasiya edildi. Əməliyyatlar fəsadsız keçdi və post operativ kontraktura müşahidə edilmədi. Ancaq bir xəstədə, median sinirin anterior interosseus şaxəsi zədələnərək onun innervasiya etdiyi motor zona defisiti müşahidə edildi.

*t.e.n., uzman* **Dr. Cəfər Nəsirli,**
**Dr. Nicat Səttarov,**
**Dr. Qail Qasımov,**
**Dr. Emil Qəhrəmanov**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

### Kafedraların professorlar (elmlər doktorları):

- Onkologiya kafedrası -1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası -1 yer
- Mikrobiologiya və immunologiya kafedrası -1 yer (0,5 vahid)
- Psixiatriya kafedrası -1 yer (0,25 vahid)
- I mamalıq və ginekologiya kafedrası -1 yer (0,5 vahid)

### Kafedraların dosentləri (fəlsəfə doktorları):

- Ümumi cərrahlıq və anesteziologiya kafedrası -1 yer (0.25 vahid)
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası -1 yer (0,5 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası -1 yer (0,5 vahid)
- Ümumi və toksikoloji kimya kafedrası -1 yer
- Yoluxucu xəstəliklər kafedrası -1 yer (0,5 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası -1 yer
- Onkologiya kafedrası -1 yer

### Kafedraların baş müəllimləri:

- Farmakoqnoziya və botanika kafedrası -1 yer
- Azərbaycan dili kafedrası -1 yer (0,75 vahid)

### Kafedraların müəllimləri:

- Xarici dillər kafedrası - 1 yer
- Bədən tərbiyəsi və idman kafedrası -1 yer (0,5 vahid)
- Bədən tərbiyəsi və idman kafedrası -1 yer (0,5 vahid)

### Kafedraların assistentləri:

- Tibbi biologiya və genetika kafedrası -1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası -1 yer (0,5 vahid)
- Dermatovenerologiya kafedrası -1 yer (0,5 vahid)
- I MPF-nin II daxili xəstəlikləri kafedrası -1 yer
- Onkologiya kafedrası -1 yer (0,5 vahid)
- Normal fiziologiya kafedrası -1 yer
- Tibbi fizika və informatika kafedrası -1 yer
- Urologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası - 1 yer (0,75 vahid)
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası - 1 yer
- II MPF-nin uşaq xəstəlikləri kafedrası -1 yer
- Psixiatriya kafedrası -1 yer
- Patoloji fiziologiya kafedrası -1 yer
- I uşaq xəstələkləri kafedrası -1 yer (0,75 vahid)
- Uşaq cərrahlığı kafedrası -1 yer (0,75 vahid)
- Histologiya, embriologiya və sitologiya kafedrası -1 yer (0,5 vahid)
- Neonatologiya kafedrası -1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası -1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası -1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası -1 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası -1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası -1 yer (0,5 vahid)
- II mamalıq və ginekologiya kafedrası -1 yer (0,5 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası -1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer (0,5 vahid)
- Mikrobiologiya və immunologiya kafedrası -1 yer (0,5 vahid)
- Mikrobiologiya və immunologiya kafedrası -1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti, 15 dekabr 2014-cü il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**Bakı şəhəri- Az 1007, Bakıxanov küçəsi 23. Telefon: 597-43-23**

# Oturaq iş insanın psixi vəziyyətinə pis təsir göstərir



**Tasmaniya Universitetinin mütəxəssisləri dövlət qulluğunda çalışan 3367 işçi arasında sorğu apa-rıblar. Bir ay çəkən tədqiqat zamanı narahatlıq və depressiya hallarının səviyyəsi araşdırılıb. Bundan əlavə, könüllülər fiziki işin miqdarını və işdən məmnunluq dərəcəsini müşahidə ediblər. AzərTAc xəbər verir ki, bu məlumatları "Psych Central" nəşri təqdim edib.**

Məlum olub ki, oturaq həyat tərzi və bir yerdə oturub işləmək insanın psixi vəziyyətinə mənfi təsir göstərir. Gün ərzində kompyuter qabağında altı saatdan çox oturan insanlarda ruh düşkünlüyünün və narahatlıq hissinin səviyyəsi yüksək olur.

Tədqiqat zamanı kişilərin hər biri hər gün iş yerində təqribən beş saat, qadınlar isə dörd saat vaxt keçiriblər. Depressiya ilə bədənin statik vəziyyəti arasında əlaqə qadınlar arasında daha çox hiss olunub.

Qeyd edək ki, gün ərzində yığılan gərginlikdən yaxa qurtarmağa hətta idman zalına getmək də kömək etməyib. Alimlər arada özünə fasilə verib, elə iş yerindəcə sadə gimnastika hərəkətləri etməyi məsləhət görürlər. Bunun üçün hətta xüsusi "ofis" proqramları da mövcuddur.

# Elektron poçtun tez-tez yoxlanılmasının səbəbi stress və psixi pozuntulardır



**Bəzən işimiz hansısa məlumatı poçtla göndərməyi tələb edir. Sorğumuzun qısa müddətdə cavablanacağını gözləyərkən tez-tez "yeniləmək" düyməsini basırıq. Elektron poçtun tez-tez yoxlanılması stressin toplanmasına və psixi pozuntuların inkişafına səbəb olur. AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, Kanada alimləri tədqiqatın nəticələrinə əsasən belə qənaətə gəliblər.**

Mütəxəssislər elektron poçtla hər hansı məktubunuza cavab almaq üçün kompyuterin qarşısında az vaxt keçirməyi məsləhət görürlər. Gün ərzində poçtunuza cəmi üç dəfə - səhər, günorta və axşam girin. Elektron poçtun özü təcili olmayan məlumatlar üçün nəzərdə tutulub. Belə olan halda yazışma etiketi də pozulmur.

Risk qrupuna ofis işçiləri daxildir, çünki poçtla cavab gözləmək onların vəzifəsinin bir hissəsi sayılır. Belə olan halda alimlər bir dəfəyə maksimum məlumata cavab verməyi təklif edirlər. Onda həm dincəlməyə, həm də digər daha vacib və maraqlı tapşırıqlara vaxt qalır.

# Portağalın antioksidant xüsusiyyətləri güman edildiyindən 10 dəfə çoxdur



**Sitrus meyvələr orqanizmə faydalıdır. Portağal şirəsində külli miqdarda C və D vitaminləri var. Bundan əlavə, portağal və onun şirəsi insanın həzm sistemini fəallaşdırır, immuniteti möhkəmləndirir, hüceyrələri oksidləşmə reaksiyalarından və qocalmadan müdafiə edir.**

Bununla belə, həkimlər portağal şirəsinin insana faydasını tam dəyərləndirə bilmirlər. AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, İspaniyanın Qranada Universitetinin ekspertləri müəyyən ediblər ki, portağalın antioksidant xüsusiyyətləri güman edildiyindən 10 dəfə çoxdur.

Amma hər halda azyaşlı uşaqlara portağal və onun şirəsini vermək məsləhət deyil. Hamilə qadınlar və süd verən analar da özlərini bu potensial allergendən qorumalıdırlar.

## Etibarsız sayılır

Tibbi profilaktika fakültəsinin I kurs, $618^{b}$ qrup tələbəsi Hacıyeva Mafizət Eldəniz qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Aslanov Faiq Mirsəməd oğluna Azərbaycan Tibb Universiteti tərəfindən 1997- ci ildə həkim-stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Rəsulova Arzu Nazim qızına Azərbaycan Tibb Universiteti tərəfindən 1998-ci ildə pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Quliyeva Ülkər Səfər qızına Azərbaycan Tibb Universiteti tərəfindən 2003-cü ildə həkim-laborant ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $2^{b}$ qrup tələbəsi Etibarlı Nərmin Nərman qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, $737^{a}$ qrup tələbəsi Oğuzhan Sarıhasan Tanju oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qafqaz Universitetinin pedaqoji riyaziyyat və informatika fakültəsinin V kurs tələbəsi Mahmudzadə Ziyarət Allahverdi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin III kurs, $800^{b}$ qrup tələbəsi Həzizadə Ramil Sərdar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, 365a qrup tələbəsi Əhmədli Sona Sərxan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 197